*TÜRKİYƏ—AZƏRBAYCAN DOSTLUĞU HƏQİQƏTƏN ƏBƏDİDİR, DÖNMƏZDİR, SARSILMAZDIR.*

**HEYDƏR ƏLİYEV**
*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ*

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının **10 illiyinə** həsr olunmuş

# ELMİ-PRAKTİK KONFRANS

**(materiallar)**

**14 yanvar 2002-ci il**

**Bakı 2002**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

72 Az
A 39

*Redaksiya heyəti:*

**N.Q.Cəfərov** *(sədr)*, **H.M.Məmmədov**,
**S.Ə.Nəzərli** *(məsul redaktor)*,
**N.S.Əhmədli, O.Ə.Musayev,**
**R.İ.Məmmədova**

*Operatorlar:*

**Mehriban İsmayılova,**
**Şəfa Məmmədova**

✱

**A 39. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin 10 illiyinə həsr olunmuş elmi-praktik konfrans (14 yanvar 2002-ci il). "Azərbaycan Milli Ensiklopediyası" nəşriyyatı, Bakı, 2002, 70 səh.**

Bu kitaba Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi ilə əlaqədar Azərbaycanda Atatürk Mərkəzi ilə Türkiyənin Azərbaycandakı Səfirliyinin 2002-ci il yanvarın 14-də birgə keçirdikləri elmi-praktik konfransın materialları daxil edilmişdir.

✱

A 3002000000
M 657-2002

ISBN 5-89600-344-7

*©Azərbaycanda Atatürk Mərkəzi, 2002*

# AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN 10-CU İLDÖNÜMÜ QEYD EDİLƏCƏKDİR.

## Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Bakıdakı səfirini qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 11-də Prezident Sarayında Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Geviközü qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev dost ölkənin diplomatını səmimiyyətlə salamlayaraq hal-əhval tutdu, Bakıda nə vaxtdan səfir vəzifəsində çalışdığını soruşdu.

Vaxt ayırıb onu qəbul etdiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən **ƏHMƏD ÜNAL ÇEVİKÖZ** dedi:

— Hörmətli Cümhur Başqanım, Sizə etimadnaməmi 27 noyabrda təqdim etmişəm. Artıq ay yarıma yaxınlaşıbdır. Bu müddət ərzində Azərbaycan hökumətinin hörmətli nazirləri ilə tanışlıq görüşləri keçirmişəm. Onlar Azərbaycandakı inkişaf, hazırlanmaqda olan qanunlar barədə mənə məlumat verdilər. Mən də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin irəliləməsi üçün çalışmağa hazır olduğumu, bu sahədə başda zati-aliniz olmaqla mənə dəstək veriləcəyinə əmin olduğumu söylədim. Görüşdüyüm nazirlər də mənə dəstək verəcəklərini söylədilər. Bu da məni çox məmnun etdi.

Türkiyənin böyük elçisi kimi Azərbaycanda çalışmaq çox böyük şərəfdir. Amma gördüm ki, bu, mənim üçün həqiqətən şərəflə bərabər, həm asan, həm də zövqlü bir iş olacaqdır. Belə dəstək aldığım üçün çox məmnunam. Cənab Prezident, sağ olun. Bütün bunlarda Sizin çox böyük payınız vardır.

**HEYDƏR ƏLİYEV:** Mən heç başqa cür düşünə bilməzdim. Sizə bu qədər dəstək verilməsi məni heç təəccübləndirmir. Bunlar hamısı təbiidir. Bu, Azərbaycan ilə Türkiyə arasında olan dostluq,

qardaşlıq, əməkdaşlıq əlaqələridir və hər bir nazir, yaxud başqa vəzifəli şəxs — təkcə onlar yox, bizim vətəndaşlarımızın əksəriyyəti — Türkiyəyə çox böyük məhəbbətlə, sevgi ilə münasibət göstərirlər. Onların hər biri Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etməsi üçün əlindən gələni etməyə hazırdır. Ona görə mən sizinlə görüşəndə də dedim ki, heç də narahat olmayın, sizin burada işiniz çox asan, qolay olacaqdır.

Mən o vaxt da demişdim, indi də deyirəm, əgər bir çətinliyiniz olsa, mən buradayam.

ƏHMƏD ÜNAL ÇEVİKÖZ: Çox təşəkkür edirəm.

Hörmətli Cümhur Başqanım, bilirsiniz ki, 2002-ci il yanvarın 14-ü ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının onuncu ildönümüdür. Biz bunu Türkiyə—Azərbaycan əlaqələrinə layiq şəkildə keçirmək üçün bir proqram hazırlamışıq. Azərbaycan Atatürk Mərkəzi yanvarın 14-də Milli Elmlər Akademiyasında elmi konfrans təşkil edəcəkdir. Konfransda çıxış etmək üçün Türkiyədən də məruzəçilər gələcəklər. Bu, ortaq bir elmi konfrans olacaq və biz orada Türkiyə—Azərbaycan əlaqələrinin on ilini dəyərləndirəcək, tarixi, sosial, iqtisadi, siyasi və hərbi əlaqələr barədə müzakirələr aparacağıq. Həmin gün axşam bu yubileyi təntənəli şəkildə qeyd etmək üçün bir mərasim keçirməyi nəzərdə tutmuşuq.

Zati-aliləri, vaxt tapıb həmin tədbirdə iştirak etsəniz, bizi şərəfləndirər və məmnun edərsiniz.

HEYDƏR ƏLİYEV: Çox məmnunam. Mən bilirəm ki, ölkələrimiz arasında diplomatik əlaqələr qurulmasının onuncu ildönümüdür. Bu, bizim üçün çox əziz bir gündür. Çünki Türkiyə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkədir və Azərbaycanla diplomatik əlaqə quran ilk ölkədir. Bu, bizim üçün çox əhəmiyyətlidir. Amma digər tərəfdən də bu, Türkiyədir, başqa dövlət deyil. Ona görə sizin proqramınızdan çox məmnunam. **Çox məmnunam ki, mənim təşəbbüsümlə Azərbaycan Atatürk Mərkəzi artıq fəaliyyət göstərir.** O vaxt mənə Beynəlxalq Atatürk sülh mükafatı veriləndən sonra düşündüm ki, bunu etmək lazımdır və buna da böyük ehtiyac varmış.



**Mən çox böyük bir professoru həmin Mərkəzə başqan təyin etdim.** O, bizim parlamentin deputatıdır. Orada başqa adamlar da var. Onlara çox qədim, gözəl bir bina vermişəm.

ƏHMƏD ÜNAL ÇEVİKÖZ: Hörmətli Cümhur Başqanım, biz o binanı gördük, Mərkəzin rəhbəri ilə birlikdə ziyarət etdik. Binanın təmiri ilə bağlı bir layihə hazırlanıbdır. İnşallah, bu layihəni altı ay müddətində başa çatdırmaq istəyirlər.

HEYDƏR ƏLİYEV: Onlara büdcədən vəsait ayırdım ki, oranı tezliklə təmir etsinlər. Bina çox gözəl, çox qədim, memarlıq əsəri olan bir binadır. Mən vaxtilə, keçmişdə o binada olmuşam. O neçə vaxt idi ki, boş qalmışdı. Kimlərsə onu ələ keçirmək istəyirdi, mən qoymurdum, deyirdim ki, bu bina dövlətə lazım olacaqdır. Sonra da lazım oldu. Atatürk Mərkəzi yaranandan sonra düşündük ki, ona hansı binanı verək. Mənə bir neçə yerin ünvanını verdilər. Amma dedim ki, bu binanı verməliyik. Bildirdilər ki, həmin bina bir az köhnəlibdir, xarablaşıbdır. Dedim, bu çətin məsələ deyil, vəsait verəcəyik, düzəldəcəklər. Vaxtilə bu binanı çox gözəl tikiblər. Çox yaxşıdır.

ƏHMƏD ÜNAL ÇEVİKÖZ: Bəli, çox gözəl binadır. Hazırda oranı təmir edirlər və altı ay ərzində bitirəcəklər. Atatürk Mərkəzi yaranandan bəri ilk fəaliyyətinə bazar ertəsi günü — yanvarın 14-də keçiriləcək elmi konfransla başlayacaqdır. Bu da bizə çox böyük məmnunluq və şərəf verir.

HEYDƏR ƏLİYEV: Çox gözəl. Çalışaram ayın 14-də axşamkı proqramınızda — hər halda mən proqramıma baxaram, — olum. Çünki bu, bizim üçün əlamətdar bir gündür.

ƏHMƏD ÜNAL ÇEVİKÖZ: Cənab Prezident, bizə böyük şərəf vermiş olarsınız.

HEYDƏR ƏLİYEV: Sizdə, Ankarada, İstanbulda yenə də qar yağır?

ƏHMƏD ÜNAL ÇEVİKÖZ: Türkiyə çox ağır bir dövr yaşadı. İstanbul, Ankara on ildə ilk dəfədir ki, belə ağır qış yaşayır. Qar artıq əriməyə başlayıbdır, yollar açılıdır. Azərbaycana da bir az qar yağdı, iki gün yağdı, sonra kəsdi.

Çox şükür, hər şey normal vəziyyətə düşdü. İndi yollar açılıbdır, təyyarə də işə düşübdür. Bilirsiniz ki, İstanbuldan

Bakıya iki gün təyyarə gələ bilmədi. Bu məni çox üzdü, insanların gediş-gəlişini ləngitdi. Ancaq sonra insanlar Azərbaycandan Ankaraya gedə bildilər.

Bilirsiniz ki, Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədəki işbirliyi ilə bağlı anlaşmanın hazırlanması başa çatdırıldı. Anlaşmanın mətni üzərində müzakirələr aparıblar və sonra onun imzalanmasını tarixi müəyyənləşdiriləcəkdir. Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədəki işbirliyi anlaşması qaçaqmalçılığa, terrorizmə qarşı birgə mübarizə aparmaq barədə, eyni zamanda, Bakı—Tbilisi—Ceyhan əsas ixrac boru kəmərinin mühafizəsi ilə bağlı bir sıra məsələləri özündə əks etdirir. Biz düşünürük ki, bu, çox faydalı bir anlaşma olacaqdır.

**HEYDƏR ƏLİYEV:** Biz bü gün Türkiyə—Azərbaycan diplomatik əlaqələrinin qurulmasının onuncu ildönümünü qeyd etməyə başladıq. Bu münasibətlə Türkiyənin böyük elçisi Azərbaycan Prezidenti ilə görüşür. Bu tədbir bundan sonra da davam edəcəkdir.

**ƏHMƏD ÜNAL ÇEVİKÖZ: Çox sağ olun.**

**Qəbulda Prezidentin Katibliyinin rəisi Dilarə Seyidzadə, Prezidentin İcra Aparatının şöbə müdiri Novruz Məmmədov iştirak edirdilər.**

*AzərTAc*

✱



# AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN 10 İLLİYİNƏ HƏSR OLUNMUŞDUR.

Azərbaycanda Atatürk Mərkəzi ölkəmizlə Türkiyə arasında diplomatik əlaqələrin 10 illiyi münasibətilə yanvarın 14-də Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında elmi-praktik konfrans təşkil etmişdir.

Atatürk Mərkəzinin müdiri, AMEA-nın müxbir üzvü **Nizami Cəfərov** konfransı açaraq bildirdi ki, ötən on ildə dünyada, eləcə də Azərbaycanda və Türkiyədə baş vermiş proseslər qardaş ölkələrimiz arasında diplomatik əlaqələrin sürətlə inkişafını şərtləndirmişdir.

Azərbaycanla Türkiyənin eyni bir xalqın eyni bir etnik-mədəni sistemə malik iki dövlət olduğunu, ölkələrimiz arasında diplomatik əlaqələrin də məhz bu səviyyədə qurulduğunu vurğulayan natiq dedi ki, dövlət rəhbərlərinin keçirdikləri müxtəlif görüşlərdə Azərbaycan—Türkiyə əlaqələri həmişə öndə olmuşdur. Dəfələrlə bildirilmişdir ki, qardaş dövlətlərimiz arasındakı əlaqələrin hərtərəfli inkişafı ölkələrimiz üçün olduqca vacib, həyati əhəmiyyətlidir və beynəlxalq fəaliyyətimizin əsasını təşkil edən münasibətlərdir.

Sonra Türkiyənin ölkəmizdəki səfiri **Ünal Çeviköz**, Azərbaycanın xarici işlər naziri **Vilayət Quliyev** və Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri **Novruz Məmmədov** çıxış etdilər.

Ötən on ildə ölkələrimiz arasında diplomatik əlaqələrin möhkəm və sağlam təməl üzərində formalaşdığını vurğulayan natiqlər Azərbaycanın öz müstəqilliyini qoruyub saxlamasında, beynəlxalq aləmdə tanınmasında qardaş Türkiyənin dəstəyindən danışdılar, konfransa öz işində uğurlar arzuladılar.

Konfransda Türkiyənin keçmiş diplomatı, professor Bilal Şimşirin "Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin qurulması

tarixindən", Respublika İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin direktoru, professor Rasim Həsənovun "Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin bu günü və gələcəyi", Avrasiya Strateji Araşdırmalar Mərkəzinin direktoru, doktor Yaşar Kalafatın "Son on ildə Türkiyə-Azərbaycan münasibətlərinin sosial-mədəni xüsusiyyətləri", Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimovun "Azərbaycan ilə Türkiyə arasında hərbi və təhlükəsizlik sahələrində əməkdaşlıq" mövzularında məruzələri dinlənildi.

Sonra məruzələr ətrafında müzakirələr oldu.

Səfir **Ü.Çeviköz,** professor **N.Cəfərov** yekun sözü söylədilər.

*AzərTAc*

✷



# AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUĞU, QARDAŞLIĞI YENİLMƏZDİR, ƏBƏDİDİR.

## AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DİPLOMATİK ƏLAQƏLƏR YARADILMASININ ON İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİM.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR.

Yanvarın 14-də Türkiyənin Bakıdakı səfirliyi Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələr yaradılmasının on illiyi münasibətilə "Avropa" mehmanxanasında mərasim keçirmişdir.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri **Ünal Çeviköz** və Azərbaycanın Prezidenti **Heydər Əliyev** mərasimdə çıxış etdilər.

## TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ ÜNAL ÇEVİKÖZÜN ÇIXIŞI

— ***Hörmətli Cümhur Başkanı!***

***Dəyərli qonaqlar!***

Bu gün, 2002-ci il yanvarın 14-ü Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələr qurulmasının onuncu ildönümü tamam olur. Bu, Türkiyə və Azərbaycan xalqlarının müştərək bayramıdır. Bu gün bizim üçün fövqəladə önəmli gündür.

Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələr on il bundan əvvəl yaradılmışdır. Amma bizim əlaqələrimiz çox qədim dövrə, tarixin dərinliklərinə qədər gedir.

1918-ci ildə Azərbaycan ilk dəfə müstəqilliyini əldə edəndə də Türkiyə Azərbaycanı ilk tanıyan və diplomatik əlaqələr yaradan ölkə olmuşdur. 1992-ci ildən başlayan, tarixdən gələn bu bərabərliyimizin bu gün onuncu ili tamam olur. İnşaallah, daha neçə on illər, dünya durduqca bu bərabərliyimiz, bayraqlarımızın göy üzündə birgə dalğalanması davam edəcəkdir.

Mən Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin bü gün hər sahədə çatdığı səviyyədən daha yüksəklərə qalxacağına inanıram. Burada vəzifəmi yerinə yetirərkən bu amalla çalışacağımı Sizə ərz edirəm.

Bu gün mənim üçün, həqiqətən, çox xoş bir gündür. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ötən on il ərzində son dərəcə səmərəli olmuşdur və yüksək səviyyəyə çatmışdır.

Türkiyə Azərbaycanın qarşılaşdığı bütün problemlərin həllində ona dəstək verən ölkə kimi daim onun yanında olmuşdur. Biz eyni millətin müstəqil və suveren dövlətləriyik. Mən istəyirəm ki, onuncu ildönümünü qeyd etdiyimiz bu ildə, bundan sonrakı günlərdə, həftələrdə, aylarda, illərdə Azərbaycan ilə Türkiyənin qardaşlığı büdrəmədən daim irəli getsin. Azərbaycanın qarşılaşdığı problemlər öz həllini tapsın. Azərbaycanın Dağlıq Qarabağ problemi ölkənin ərazi bütövlüyü çərçivəsində ədalətli həllini tapsın, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına son qoyulsun. Azərbaycan parlaq gələcəyinə doğru inamlı addımlarla irəliləsin. Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin onuncu ili hamımız üçün xeyirli olsun.

**Sağ olun.**

✸



# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

— ***Hörmətli cənab səfir!***
***Xanımlar və cənablar!***

Sizin hamınızı Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr qurulmasının onuncu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

Bu bayram xüsusi xarakter daşıyır. Adətən biz, hər ölkənin bayramını qeyd edirik. Öz ölkəmizin, dost ölkələrin bayramlarını qeyd edirik. Amma indi hər iki ölkə bir bayramı qeyd edir. Bu, Türkiyə üçün də bayramdır, Azərbaycan üçün də bayramdır. Çünki iki dövlətin bir-biri ilə diplomatik əlaqələr qurması bayramdır.

Azərbaycan on il bundan öncə öz dövlət müstəqilliyini əldə etdi. Bu, bizim çoxəsrlik tariximizdə olduqca böyük bir tarixi hadisədir. Müstəqilliyi elan edən kimi, təbiidir ki, dünya ölkələrinə Azərbaycanı müstəqil dövlət kimi tanıtmalı idik. Bilirsiniz ki, bu özü də böyük bir prosesdir. **Əvvəlki vaxtlarda dediyimiz kimi, bu gün də deyirik ki, çox böyük xoşbəxtlikdir ki, Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. Bu, eyni zamanda təbii bir haldır. Çünki bizim xalqlarımızı bağlayan dərin köklər var.** Həqiqətən, 1918-ci ildə də Azərbaycan müstəqilliyini elan edən kimi, ölkəmizi ilk olaraq Türkiyə tanımışdı. Bu dəfə də belə olmuşdur. Ancaq eyni zamanda, Türkiyənin bu addımı Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınmasına böyük təkan verdi. Qısa bir müddətdə Azərbaycan müstəqil dövlət kimi tanındı. İndi on ildir ki, müstəqil dövlət kimi yaşayır.

**On il içərisində Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı böyük sınaqlardan keçibdir. Doğrudur, bizim dostluq, qardaşlıq əlaqələrimizdə on ildə heç bir problem olmayıbdır. Çünki bizim dostluğumuz çox sağlam təməllər, dərin tarixi köklərimiz üzərində qurulubdur. Güman edirəm ki, belə də**

**olmalı idi. Əminəm ki, bundan sonra da heç bir problem olmayacaqdır. Amma buna baxmayaraq, on il içərisində Azərbaycan öz müstəqilliyini qoruyub saxlamaq üçün böyük sınaqlardan keçdi.**

Bütün bu mərhələlərdə də Türkiyə Cümhuriyyəti həmişə Azərbaycanın yanında olubdur, Azərbaycana dəstək veribdir və beynəlxalq aləmdə Azərbaycanın problemlərinin həll olunmasında ölkəmizə həmişə dayaq olubdur.

Bizim Azərbaycan üçün ən ağrılı məsələ Dağlıq Qarabağ məsələsi, Ermənistan-Azərbaycan münaqişəsi, onun həll olunmasıdır. Bu münaqişənin həll olunmasında da Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti elə bu münaqişə başlayandan Azərbaycana həmişə dəstək veribdir. Baxmayaraq ki, o vaxt hələ Azərbaycan müstəqil deyildi, sadəcə, öz mənəvi dəstəyi ilə Azərbaycana yardım edibdir. Azərbaycan müstəqil dövlət olandan sonra isə bu, artıq bizim dövlətimizə verilən dəstək olubdur. İndi də bu ağır və çətin məsələnin həll olunması yollarının axtarılmasında Türkiyə Cümhuriyyəti Azərbaycana yaxından yardım edir, Azərbaycanla bir yerdədir, Azərbaycanın mövqelərini həmişə dəstəkləyib və əminəm ki, bundan sonra da dəstəkləyəcəkdir.

**On il biz müstəqil dövlətlər kimi bir-birimizlə əlaqədə inkişaf etmişik. Heç şübhə yoxdur ki, bu, gələcək üçün böyük bir əsasdır. Bu gələcəyin çox möhkəm təməlini qoymuşuq. Əminəm ki, bu təməl üzərində böyük bir Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı abidəsi yaradılacaqdır. Bu abidə gələcək illərdə də, gələcək əsrlərdə də Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının yenilməz rəmzi olacaqdır.**

Bir daha Sizi təbrik edirəm. (*Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı diqqətlə dinlənildi və alqışlarla qarşılandı*).

***

**Mərasim kiçik konsertlə başa çatdı.**



***

Azərbaycan Prezidenti mərasimdə iştirak edən xarici ölkələrin səfirləri ilə görüşüb, səmimi söhbət etdi.

**Mərasimdə Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezident Aparatının məsul işçiləri, baş nazirin müavinləri, Milli Məclisin deputatları, nazirlər, komitə sədrləri, birlik və konsern rəhbərləri, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.**

*AzərTac*

**NİZAMİ CƏFƏROV,**
***Azərbaycanda Atatürk Mərkəzinin müdiri, AMEA-nın müxbir üzvü, professor***

## GİRİŞ SÖZÜ

***Türkiyə Respublikasının Azərbaycandakı səfiri möhtərəm Əhməd Ünal Çeviköz.***

***Hörmətli türkiyəli qonaqlar.***

***Hörmətli konfrans iştirakçıları.***

Bu gün Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin yaranmasının 10 ili tamam olur. Bu 10 il zaman baxımından o qədər də böyük bir tarix deyil. Məsələnin məzmununa gəldikdə isə əsrlər boyu mövcud olmuş əlaqələrin bu 10 ildə intibahını görürük. Yəni bu 10 ildə həm ümumən türk dünyasında, həm Azərbaycan Respublikasının həyatında, həm də dünyanın həyatında elə proseslər baş verib ki, bu proseslər bizim əlaqələrimizin olduqca sıx, olduqca intensiv getməsini şərtləndirir. Azərbaycanla Türkiyə kənardan gəlmiş, dostlaşmış ölkələr deyil. Azərbaycanla Türkiyə eyni bir xalqın, eyni bir etnik-mədəni sistemin müxtəlif dövlətləri olaraq müəyyənləşmiş və əlaqələr bu səviyyədə qurulmuşdur.

Buna görə də son zamanlar dünyada bu tipli dövlətlərin, yəni eyni etnik-mədəni sistem üzərində qurulmuş dövlətlərin diplomatik əlaqələri sahəsində təbii ki, yeni modellər meydana çıxır. Bu əlaqələr yeni tipologiyalar nümayiş etdirir. Buna xüsusilə sevinirk ki, bu əlaqələrin ən intensiv forması Azərbaycanla Türkiyə Respublikası arasındadır. Azərbaycanla Türkiyə Respublikası arasında olan diplomatik əlaqələr ümumiyyətlə müstəqil türk dövlətlərinin arasında mövcud olan ən fəal əlaqələrin bir modelini müəyyənləşdirməlidir. Buna görə də biz düşünürük ki, Türkiyə-Azərbaycan münasibətləri sadəcə iki dövlətin münasibətləri deyil, yaranmalı olan münasibətlərin universal bir formasıdır. Bu əlaqələr nə qədər geniş olarsa,



Türkmənistan-Türkiyə, Özbəkistan-Türkiyə və yaxud Qırğızıstan-Azərbaycan əlaqələri də o dərəcədə eyni model üzərində, eyni sistem üzərində qurula bilər.

Ona görə də biz bu məsələyə, yəni Azərbaycanla Türkiyə əlaqələrinin sıxlığına, onların spektrləşməsinə önəm veririk. İstər Türkiyənin dövlət rəhbərləri, istərsə də müstəqil Azərbaycan dövlətinin qurucusu, banisi, prezidenti cənab **Heydər Əliyevin** ən müxtəlif görüşlərində bu məsələlər həmişə öndə olub. Və dəfələrlə deyilibdir ki, Türkiyə-Azərbaycan münasibətləri bizim üçün olduqca vacib, həyati əhəmiyyətli və bizim beynəlxalq münasibətlərimizin əsasını təşkil edən əlaqələr və münasibətlərdir. Mən sözü çox uzatmadan bizim elmi-praktik konfransı açıq elan edirəm və güman edirəm ki, biz burada çox isti bir söhbət edəcəyik. Burada çox görkəmli alimlər, mütəxəssislər iştirak edirlər. Elə bilirəm ki, onların məruzələrində və çıxışlarında biz bu mövzuya yalnız elmi-nəzəri planda deyil, praktik planda da müəyyən qənaətlər gətirəcəyik.

İlk sözü Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, bizim gözəl dostumuz, Azərbaycanda yenicə fəaliyyətə başlamış, amma çox möhkəm başlamış hörmətli

**Əhməd Ünal Çeviközə** verirəm.

## * ÇIXIŞLAR *

**A.ÜNAL ÇEVİKÖZ,**
***Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri***

*Sayın Bakan.*
*Sayın Atatürk Merkezi Başkanı.*
*Değerli Konuklar.*

14 Ocak 1992 tarihinde Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti arasında kurulan diplomatik ilişkilerin 10. yıldönümü dolayısiyle düzenlenen bu muteber toplantıyı izlemek üzere burada bulunan tüm değerli konuklarımızı saygı ile selamlıyorum.

Türkiye-Azerbaycan ilişkilerinin ele alınacağı bu panelin düzenlenmesinde öncelikle büyük emeği ve katkıları bulunan Atatürk Merkezi'nin değerli başkanını ve çalışma arkadaşlarını, ayrıca Bilimler Akademisi'ni kutluyor ve kendilerine teşekkürlerimi sunuyorum.

Türkiye Cumhuriyeti 9 Kasım 1991 tarihinde Azerbaycan'ın bağımsızlığını tanıyan ilk ülke olmuştur, ancak temelini tarihten ve iki ülke halklarının kardeşliğinden alan Türkiye-Azerbaycan ilişkileri bundan çok daha önce başlamıştır.

1918 yılında Azerbaycan'ı ve Azerbaycan halkını Ermeni ve bolşevik işgalinden kurtarmak için Azeri kardeşlerinin yanında yer alan Türk halkı 70 yıllık aradan sonra Sovyetler Birliğinin dağılmasıyla birlikte Azerbaycan'a tekrar kavuşmuştur. Bu aynı kültürü, aynı dili, aynı maneviyatı, aynı duygu ve düşünceleri paylaşan, aynı soydan gelen iki halkın tekrar buluşmasıdır. Yeniden buluşmak ifadesi üzerinde özellikle durmak istiyorum. Esasen, 14 Ocak 1992 tarihinde Bakü'de imzalanan protokolün başlığı da Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti arasında yeniden diplomatik ilişkilerin tesisi hakkında protokoldür.



O gün o protokolü imzalayan sayın Emekli Büyükelçi Bilal Şimşir diğer değerli konuşmacılar gibi bugün de konuşmacı olarak aramızdadır.

Azerbaycan bağımsızlığını kazanmasından sonra ülkelerimiz arasında kurulan ilişkilerin hızla gelişerek her alanda ileri bir düzeye ulaşması işbirliğimizin ve dayanışmamızın güvencesidir. Tüm dünyaya örnek olan ilişkilerimizin bu sağlam temeller üzerinde kurumsallaşıp derinleşerek daha da ileri gideceğinden eminim.

Azerbaycan 10 yıl gibi kısa bir süre içinde bölgedeki tüm güçlükleri göğüsleyerek, tarihsel birikimi, yetişmiş insan gücü ve kararlı politikasıyla bağımsızlığını ve Cumhuriyet rejimini pekiştirmiş, uluslararası toplumun saygın bir üyesi olarak hakettiği yeri kazanmıştır.

Aradan geçen 10 yıl içinde Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti arasında ikili ilişkilerimizin hukuki altyapısını tamamlayan ikiyüz civarında anlaşma ve protokol imzalanmıştır. Aynı milletin mensubu insanların bağımsız ve egemen iki devleti olan Türkiye ile Azerbaycan arasındaki ilişkiler karşılıklı içişlerine karışmama ilkeleri çerçevesinde sürdürülmektedir. İki ülke arasındakı stratejik işbirliğinin bir sonucu olarak Türkiye her düzeyde danışma ortamının yaratılmasına ve ortak çıkarların korunmasına önem atfetmektedir. Azerbaycan'da demokrasinin ve piyasa ekonomisinin bütün kurumlarının işler hale gelmesi, Azerbaycan'ın uluslararası örgütlere üye olması ve oralarda temsil edilmesi, toprak bütünlüğünün korunması ve güvenlik endişelerinin giderilmesi büyük önem taşımaktadır.

Ben, bugün buradaki panelin ilişkilerimizin son 10 yılını değerlendirirken, gelecek on yılların hedeflerini belirlemek açısından da bizlere ışık tutmasını diliyoruz.

İçinde bulunduğumuz bu yılın Azerbaycan'ın karşı karşıya bulunduğu en büyük sorun olan Dağlık Karabağ sorununun çözü-



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI
2604

müne yönelik somut adımların atılacağı, işgal altındaki Azerbaycan topraklarının serbest kalacağı, kaçkınların ve mecburi göçkünlerin geleceğe ümitle bakacağı, Bakü–Tiflis-Ceyhan petrol boru hattının temelinin atılarak inşaatine başlanacağı bir yıl olmasını diliyorum.

**Çalışmalarınızda başarılar dilerim, sayın Başkan.**



## VİLAYƏT QULİYEV,

***Azərbaycan Respublikasının xarici işlər naziri***

*Dəyərli dostlar.*
*Hörmətli xanımlar və cənablar.*

Bu gün biz diqqətəlayiq bir tarixi qeyd etmək üçün buraya toplaşmışıq. Azərbaycanla Türkiyə Respublikası arasında diplomatik əlaqələr qurulmasının 10 ili tamam olur. Hörmətli səfirin də xatırlatdığı kimi, Azərbaycanın dövlət müstəqilliyi Türkiyə tərəfindən 1991-ci il noyabrın 9-da tanınmışdır. Mən bu tarixə xüsusi olaraq diqqəti cəlb etmək istəyirəm.

Həmin dövrdə hələ Sovetlər İttifaqı zəifləsə də, onun içərisində dağılma prosesləri getsə də bu dövlət – yəni öz iradəsini dünyaya diqtə etməyə qadir olan bu superdövlət hələ de-fakto və de-yure mövcud idi. Və Türkiyə o zaman həqiqətən də cəngavərcəsinə bir addım ataraq Sovet İttifaqının rəsmən dağılmasını, çökməsini gözləmədən Azərbaycanın dövlət müstəqilliyini tanıdı və bununla da sanki bütün dünyaya bir örnək verdi. Bütün dünyaya göstərdi ki, Azərbaycan xalqı özünün müstəqil, azad yaşamaq hüququnu artıq əldə edib, bu hüquqa hörmətlə yanaşmaq, onu tanımaq lazımdır. Bundan az sonra 1992-ci ilin yanvarında Türkiyə Azərbaycanda öz diplomatik nümayəndəliyini açdı. Həmin ilin avqustunda isə Azərbaycanın xaricdəki – Türkiyədəki ilk səfirliyi açıldı və beləliklə də iki ölkə arasındakı diplomatik əlaqələr rəsmən quruldu və inkişaf etməyə başladı.

Əslində burada tarix özünü təkrar etdi. Yəni 1918-ci ildə, – bizim tarixçilər bunu təfərrüatına qədər incələyiblər, – Azərbaycan öz müstəqilliyini elan edəndə onu ilkin olaraq tanıyan, yardımına gələn Türkiyə olmuşdur. Və Azərbaycanın müstəqilliyinin elanından az sonra – 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı dövləti arasında dostluq və qarşılıqlı yardım haqqında saziş imzalanmışdır. Bunun ardınca xalqımızın yardımına gələn 5-ci Qafqaz İslam ordusu bir tərəfdən Azərbaycan dövlətçiliyinin qorunmasına kömək etdi, o biri tərəfdən

isə həmin dövrdə erməni işğalına məruz qalan azərbaycanlıların kütləvi soyqırımının qarşısını aldı. Beləliklə, tarixin son dərəcə çətin və mürəkkəb bir dönəmində qardaş türk xalqı soydaşlarımızın bir millət kimi ayağa qalxmasına və dirçəlməsinə öz töhfəsini vermiş oldu. Eyni proses 1991-ci ildən sonra da başladı. Azərbaycanın dostları sırasında birinci olaraq türk qardaşlarımızı gördük, istər sevincli günlərimizdə, istərsə də çətin, həyəcanlı anlarımızda arxamızda 70 milyonluq Türkiyənin durduğunu, dəstəyin məhz Türkiyədən gəldiyinin şahidi oluruq. İndiyə qədər rəsmi şəkildə Ermənistanı işğalçı dövlət kimi tanıyan, məhz buna görə də Ermənistanla diplomatik münasibətlər qurmayan, ikitərəfli münasibətlərin gələcəyini erməni işğal qüvvələrinin Azərbaycandan çıxması ilə şərtləndirən də məhz Türkiyədir. Avropa Şurasına daxil olarkən də üzləşdiyimiz çoxsaylı haqsızlıqlarda, ədalətsizliklərdə, ikili standartlarda bizi müdafiə edən yalnız və yalnız Türkiyə idi. Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul olunan müxtəlif qərar və qətnamələrdə Türkiyə həmişə qeyd-şərtsiz olaraq Azərbaycanın tərəfində dayanır, onun ərazi bütövlüyünü, sərhəd toxunulmazlığını müdafiə edir.

Bizim Türkiyə ilə sıx əməkdaşlığımız və əlaqələrimiz son 10 ildə sürətlə inkişaf edib. Türkiyə bu illər ərzində Azərbaycanın ticarət partnyorları arasında həmişə ilk üçlüyə daxil olub.

Amma təəssüflər olsun ki, keçən bu 10 il həm Azərbaycan üçün, müəyyən mənada həm də Türkiyə üçün narahat bir dövr olub. Sanki bu ölkələrin öz problemləri ilə sərbəst şəkildə məşğul olmalarına imkan verilməyib.

Amma bütün çətinliklərə baxmayaraq biz əməkdaşlığımızı davam etdiririk və ümid edirəm ki, bundan sonra daha böyük uğurlar qazanacağıq.

Əlbəttə, mən əminəm ki, bugünkü seminarda biz təkcə keçən 10 ilə yekun vurmayacağıq, eyni zamanda qarşıdan gələn onilliklərdə görüləcək işlər barədə fikir mübadiləsi aparacağıq.

Bir kəlmə ilə keçən onilliyə yekun vurmaq lazım gəlsəydi, deyərdim ki, uğurlu onillik olub, iki dövlətin əlaqələrinin möhkəm təməli, bünövrəsi qoyulub. Heç şübhəsiz, gələcək



illərdə Bakı-Ceyhan, Bakı-Ərzurum kimi ciddi layihələrin həyata keçirilməsi, Qafqazın təhlükəsizlik sistemində Türkiyənin yerinin və rolunun daha da artırılması, bu regionda sülhün və sabitliyin əldə olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, erməni işğalçılarının son nəfərinə qədər Azərbaycan torpaqlarından çıxarılması kimi taleyüklü, mühüm məsələlərdə biz Türkiyə ilə - əsrlərin sınağından çıxmış Türk dövləti ilə, qardaş türk xalqı ilə uğurlu əməkdaşlıq edəcəyik.

Mən bir daha bu onillik münasibətilə, diplomatik əlaqələrimizin ilk onilliyi münasibətilə tədbir iştirakçılarını, Türkiyədən gəlmiş əziz qonaqları ürəkdən təbrik edirəm. Bu münasibətlərə öz töhfəsini vermiş bütün siyasətçilərə, elm adamlarına, diplomatlara, dövlət xadimlərindən tutmuş sıravi vətəndaşlara qədər öz sayğı və minnətdarlığımı bildirirəm, konfransın işinə böyük uğurlar arzu edirəm.

**Diqqətinizə görə çox sağ olun.**

## NOVRUZ MƏMMƏDOV,

***Prezident Aparatı xarici əlaqələr şöbəsinin müdiri***

***Hörmətli konfrans iştirakçıları.***

Bugünkü bu toplantı çox mühüm bir tarixi və əlamətdar hadisəyə, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr olunmuşdur. Bu gün biz qürur hissi ilə qeyd edirik ki, Azərbaycan öz müstəqilliyini qazandığı vaxt ilk dəfə onu tanıyan da, diplomatik əlaqələri quran da Türkiyə Respublikası olmuşdur. Bunu biz bu gün çox təbii hesab edirik.

Lakin, əlbəttə, o vaxt belə olmasaydı, Türkiyə Azərbaycanı tanıyan ikinci ya üçüncü dövlət olsaydı, bu gün biz özümüzü çox rahatsız hiss edərdik. Tarixi ədalət bu dəfə də öz yerini düzgün tutmuşdur.

Bir millət kimi əlaqələrimizin tarixi çox qədim dövrlərə gedib çıxır. Bu proses son bir neçə yüz il ərzində bir çox xüsusi mərhələlərdən keçmişdir. İndi yeni bir dövr başlayır. Bu gün biz keçmişimizə nəzər salıb onun obyektiv öyrənilməsi və yaranmış boşluqların doldurulması üçün çalışmaq, tarixi ədaləti bərpa etmək imkanı əldə etmişik. Və bu imkandan tam istifadə etmək bizim müqəddəs borcumuzdur.

Dünaynın Avrasiya hissəsində XX əsrin sonunda, XXI əsrin əvvəllərində yeni siyasi mənzərə yaranmışdır. Bu siyasi mənzərənin formalaşmasında Azərbaycan-Türkiyə əlaqələrinin xüsusilə mühüm əhəmiyyəti var. Azərbaycan üçün Türkiyə bu gün mənəvi, siyasi, iqtisadi və hüquqi bir dayaqdır. Biz bunu həm ikitərəfli, həm çoxtərəfli münasibətlərdə, həm də beynəlxalq təşkilatlarla əməkdaşlıq zamanı hiss edirik, duyuruq. Eyni zamanda belə bir dayağı biz həm də Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində də görürük.



Türkiyə üçün isə Azərbaycan ən yaxın strateji partnyordur, Orta Asiya üçün körpüdür, mühüm beynəlxalq layihələrin həyata keçirilməsi üçün təşkilatçı, aparıcı və açardır. Eləcə də Türk dünyasının və dövlətlərinin dostluğu, qardaşlığı və əməkdaşlığına zəmin yaratmaq üçün ən mühüm və etibarlı qarantdır.

Bu gün biz müstəqilliyimizin kiçik bir tarixini yaşayırıq. İkitərəfli diplomatik münasibətlər qurulandan sonra bu kiçik bir tarixdir. Lakin eyni zamanda bizim dostluğumuzun, qardaşlığımızın və bütün sahələrdə əməkdaşlığımızın yeni mərhələsinin başlanğıcıdır. Bizim isə ən məsul və müqəddəs vəzifəmiz bundan ibarətdir ki, bu istiqamətdə əlimizdən gələni edək və bununla da həm bu gün xalqlarımızın tarixi istək və arzularını reallaşdıraq, həm də ata-babalarımızın bu münasibətlərlə bağlı bəzi mərhələlərdə olan narahatlığını törədən səbəbləri aradan qaldıraq ki, onların da ruhu şad olsun.

**Çox sağ olun. Diqqətinizə görə minnətdaram.**

***Professor* BİLAL ŞİMŞİR,**
***təqaüddə olan səfir***

## TÜRKİYE İLE AZERBAYCAN ARASINDA DİPLOMATİK İLİŞKİLERİ TARİHİNDEN

***Hörmetli Nazır.***
***Sayın Büyükelçi.***
***Hanımlar ve Cenaplar.***

Ben evvela, Atatürk Merkezi mensuplarına takdirlerimi bildirmek isterim. Çok önemli bir orqanizasyon yapmışlar, takdirlerimi tekrar bildirmek isterim. Aynı zamanda beni de buraya davet ettikleri için teşekkürlerimi sunmak istiyorum. Teşekkürlerim kupkuru bir teşekkür olmasın diye, Azerbaycan Atatürk Merkezi'ne beş-altı kitap getirdim. Bunların hepsinde Azerbaycan vardır.

Bundan 10-12 yıl önce ben Çin'de büyükelçiydim. Oradan dönünce Dışişleri Bakanlığında Balkanlar'dan Japonya'ya kadar bölgeni kapsayan genel müdür olarak tayin edildim. Ben genel müdürlüğe gelince, birden-bire tarihi gelişmeler oldu. Azerbaycan'a gelince Azerbaycan 23 Eylül 1990'da egemenliğini ilan etti. Kronolojisi açısından ilişkilerimiz üç aşamalı oldu. 23 Eylül 1990'dan 23 Ocak 1992'ye kadar, yani Azerbaycan Birleşmiş Milletler'e bayrağını çektiği zamana kadar ben bütün bu proseslerin içinde vardım. Bayrağını New York'ta çekerken de, burada vardım.

Ben Azerbaycan ile protokolü imzalayan kişiyim. Önemli olayların, tarihi olayların tam merkezinde olan insandım. Birçok hatıratım var, bunları mezara da götürmek istemem. Fakat, burda zamanımız çok sınırlıdır, yalnız birkaç tanesine değinip geçeceğim. Azerbaycanın egemenliğini ilan etmesi Türkiye bakımından iki sonuç verdi:



1. Burada bir başkonsolosluk açtık. Bu Baküde ilk başkonsolosluktur.

2. 15-16 Mart 1991'de bizim prezident Özal Azerbaycan'a ziyaret yaptı ve bu ziyaret sırasında birçok anlaşmalar da imzalandı. Ben o delegasyonda yoktum. Fakat, benim yardımcım vardı.

Ben o delegasyona şöyle bir kitap verdim: Azerbaycan'da türk alfabesinin tarihçesi. Azerbaycan'da, Bakü'de 1922 yılında Türk dünaysında ilk latin alfabeli «Yeni yol» gazetesi çıkarılmıştır. Bana sonradan dediler ki, bizim arhivimizde bunlar yok. Ben bunları arhive götürerken, demek istedim ki, Azerbaycan'da elifba sohbeti kadimdir. Feteli Ahundov'dan başlayarak bunları hatırlattım ve Cumhurbaşkanı Özal uçağı ile bunları buraya gönderdik.

Sonra, efendim, birçok olay çok hızlı gelişti, bir tarih yaşadık. Biz Anadolu'da Anadolu'yu iki kere fethettik. Birisi bin yıl önce, birisi 1920'lerde 80 yıl önce fethettik. Azerbaycan iki kere istiklalini fethetti. Birisi 1918'de, birisi 1991'de. Ve büyük heyecan yaşadık, büyük tarih yaşadık.

30 Ağustos 1991'de Azerbaycan istiklalini ilan etti. 30 Ağustos bizde zafer bayramıdır. Zafer bayramını biz çifte bayram olarak kutladık o yıl ve hemen arkasından devlet beni üç kişilik bir heyetin delegasyonu başında Bakü'ye gönderdi. 12 Eylül 1991'de biz Türkiye adına Azerbaycan'a geldik. Ayaz Mutallibov altı gün önce prezident seçilmişti. Biz kendisi ile görüştük ve prezident seçilmesinden dolayı kendisini kutladık. Arkasından baş nazır Hasan Hasanov'la, Bilimler Akademisi başkanı prof. Eldar Salayev'le görüştük. Ondan sonra muhalefetle de - Sosyal Demokrat Parti başkanı Araz Alizade, Halk Cephesi lideri Ebülfez Elçibey- Allah rahmet etsin- ve diğer yetkililerle görüştük. Dönüşte Cumhurbaşkanı Özal beni cağırdı, ne yapacağız, diye sordu. İki şey yapacağız, söyledim:

1. Bir defa onların prezidentlerinin hepsiyle görüşmemiz lazım. Bütün Türk Cumhuriyetleri'ni dolaştık ve Kırgızıstan'a kadar gittik, hepsini Türkiye'ye davet ettik, çünki ilk ziyaretlerini onlar Türkiye'ye yapmak istiyorlardı.

2. 'de zamanı gelmiştir,onların bağımsızlığını tanımak lazım.

Biz rapor verdik ki, tanımak lazım, fakat bu, o kadar çetin bir konu ki, 41 yıllık devlet hizmetinde en çetin raporum bu olmuştur, çünkü sonucu nereye varır bilemiyorduk: Azerbaycan'a zarar gelir mi, Türkiye'ye zarar gelir mi, Moskova ne yapar, dünya ne yapar ve nasıl bir sonuç çıkar. Son derece çetin bir konudur bu, ama dedik ki, Azerbaycan'ın ve diğer Türk Cümhuriyet'lerinin istiklalinin tanınması lazımdır. Azerbaycan tereddüt ediyordu ve bizi tanıyın diye, hala bize resmen başvurmadı. Ancak 29 Ekim 1991'de Azerbaycan Yüce Meclisi karar çıkardı: biz, bizim istiklali tanısınlar diye, dünya devletlerine başvuracağız. Aynı zamanda bir millet vekili Bakü'den bizim Meclis'e gönderildi, Ankara'ya. Ekim- Kasım başlarında Baş nazır Hasan Hasanov İtalya'dan dönüşte Türkiye'ye geldi, bizi tanıyın dedi ve ondan sonra biz harekete geçtik.

9 Kasım 1991'de benim Atatürk'ün ölüm yıldönümü dolayısiyle Orta Doğu Teknik Üniversitesitesi'nde bir konuşmam vardı. Oradan beni acelen çağırdılar. Bizim Bakan, müsteşar ve benim yardımcım, bir de Bakanın danışmanı Candan Azer altı saat Azerbaycan'ı tanımak konusunu çektik, nasıl bir açıklama yapacağız ve bu altı saat içinde bizim Bakan üç kere Başbakan'a gitti. Çok çetin bir konuydu, çok çetin bir mevzuydu ve bilirmisiniz, kimse bilmez belki NATO Azerbaycan'ın tanınmasına karşıydı. Biz toplantı sırasındayken Amerika Elçiliği mektup yetiştirdi, önce NATO'da konuşalım, sonra tanımayı düşünürüz. Sovyet Büyükelçisi Çernışov ve onun yardımcısı Valter Şoniya, Azerbaycanı tanımayın, diye bana geldiler. İngilizler tanımağı bekleyin dediler. Türkiye yalnız kalarak hep yapyalnız tanımaya karar verdi. Arkasından 9 Kasım'da akşam üzere bizim Başbakan kısa bir açıklama yaptı. Ertesi gün Dışişleri bakanı bizim hazırladığımız açıklamayı basın toplantısında yaptı. Şimdi bu 1. sapıdı. Biz o tarihte üç basamaklı, üç kademeli, üç adımlı bir politika istiyorduk.

1. adım- tanıma, 2. adım- o ülkelerle diplomatik alaka kurma, protokol ve anlaşma yapma. O anlaşmayı yaparken masaya otururuz, problemleri var mı, sorunları var mı, onları tartışıyoruz



ve bunları temizledikten sonra diplomatik ilişkiler kururuz. Mesela, Ermenistan'ı tanıdık, ama 10 yıldır böyle bir protokol imzalamadık, alaka kurmadık, diplomatik alaka yok, konsolosluk yok, sefaret yok, çünkü masanın üzerinde temizlememiz lazım gelen konular vardır. 3. aşama-tanıdıktan sonra orada elçilik ve ya büyükelçilik açmak. Politika budur, Avrupa gazeteleri buna Türk modeli dedi. Fakat sonra başkaları da bizim modeli taklit ettiler. Şimdi Azerbaycanla bu üç safha çok hızlı gelişti. 25 Aralık 1991'de bizim Meclis'te Dışişleri bütçesi dahil, bütçe görüşülürdü. Dışişleri bütçesi görüşülürken, biz de nazırın arkasında bürokratlar olarak bekleşiyoruz. O arada bana bir telgraf geldi; bir konşu - ismini tahmin ederseniz - Bakü'de elçilik açmak istiyor ve ben hemen Bakan'a bir not gönderdim. Önce birinci bizim elçilik açılması gerek, biz birinciliği başkasına bırakamayız, bu önemliliyi başkasına bırakamayız ve Bakan o gün - o da bir cesaret işidir - hükümete danışmadan Meclis önünde dedi ki, biz önce konsolosluk açtık, bekliyorduk, fakat hızlı gelişmeler oldu. Biz Bakü'de büyükelçilik açmaya karar verdik ve diğer öteki konşu devlete fırsat vermeden, çabucuk açmak istiyorduk. Altan Karamanoğlu Ankara'da veda ziyaretlerini yaparken, kar- kış, kıyamet düştü, bacağını kırdı, hastaneye yattı. Beni alelacelen iki iş için, iki talimat için buraya, Bakü'ye gönderdiler ve birisi, bir protokol imzalayacaksın, Azerbaycan'la diplomatik ilişkiler başlatacağız, ikincisi, Altan Karamanoğlu'nun itimadnamesini, güven mektubunu Azerbaycan Prezidentine sen sunacaksın. Diplomasi tarihinde bunun örneği yoktur ve bu bugüne kadar gizliydi, ilk defa burada açıklıyorum. Şöyle protokolü imzalamak da kolay iş olmadı. Azerbaycanlılar bize göks ötürdüler, 6 saat tartıştık. Biz de metin hazırladık, önce Hüseyin Sadıkov'la konuştuk, anlaştık, bunu düzelttik. Sonra ben bizim konsolosluğa döndüm. Bizim Mehmet Ali Bayar vardı, baş konsolos vekili, ona dedim, sinsi çektim, bunu daktiloda yazın, imzalamaya geleceğim, konsoloslukta işim var, Ankara'ya bildireceğim ki, bitirdik falan, diye. Bayar telefon etti ki, Azeri tarafı vazgeçti, kabul etmiyor. 3 saat daha tartıştık. Ana sebeb şu: biz imperiyanın bütün anlaşmalarını reddediyoruz, biz nasyonalistik, olmaz, ben de bu

Hərbi əməkdaşlığa və təhlükəsizlik sahələrinə gəlincə, bildirmək istəyirəm ki, hər bir dövlətin əsas məqsədi öz ölkəsinin təhlükəsizliyini inkişaf etdirmək və bunu davamlı surətdə irəliyə aparmaqdır. Bu nöqteyi-nəzərdən demək lazımdır ki, təhlükəsizliyin həm xarici, həm də daxili aspektləri var. Daxili aspektlərə toxunmayacağam, xarici aspektlərə gəldikdə isə deməliyəm ki, Azərbaycan ilk gündən çoxlu hədələr, risklər və təhlükələrlə rastlaşmış bir ölkədir. Bu təhlükələrin mənbəyi haqqında belə bir mötəbər auditoriyada əlavə şərh verməK gərək deyil.

Təhlükəsizliyin çoxaspektliyini, çoxtərəfli olduğunu mütləq nəzərə almaq lazımdır. Təhlükəsizlik təkcə hərbi məsələlərlə bağlı deyildir. Onun digər aspektləri də vardır. Onun ekoloji problemlərindən tutmuş informatik məsələlərə, iqtisadi məsələlərə qədər sahələri var. Deməli, ölkənin münasib şəraitdə inkişaf etdirilməsi təhlükəsizlik deməkdir.

Hərbi əməkdaşlığa gəlincə, mənim nöqteyi-nəzərimcə, bu məsələlərdə ilk öncə ən əsas rolu ordu oynayır. Ordunun inkişaf etdirilməsi dövlət siyasətinin istiqamətlərindən birini təşkil edir. Türkiyənin Azərbaycanın ordu quruculuğuna göstərdiyi yardımlar misilsizdir. Biz bu yardım proqramlarını uğurla davam etdiririk və onun məqsədəuyğunluğu heç bir şübhə doğurmur. Biz artıq elə bir mərhələyə çatmışıq ki, Azərbaycan da Türkiyəyə mütəmadi olaraq yardımlar göstərməyi bacarır. Əməkdaşlığın bariz nümunəsi kimi, Azərbyacanın barış qüvvələrinin Türkiyə



batalyonunun tərkibində bir ildən artıq Kosovoda xidmət etməsini göstərmək olar. Gələcək üçün artıq bizim bir neçə təklifimiz var ki, Türkiyə tərəfi bunları nəzərdən keçirir. Hərbi əməkdaşlığımızın daha da əlaqələndirilmiş şəkildə qurulmasının tərəfdarıyıq. Məncə, təkliflərimiz bizim əməkdaşlığı daha yeni səviyyəyə qaldırmaq üçün əsas yaradacaqdır. Azərbaycanın Türkiyə ilə əməkdaşlığı çərçivəsində bəzi məsələlər vardır ki, indi onları müzakirə etmək istəməzdim. Daha çox beynəlxalq təşkilatlarda bizim əməkdaşlığımız barədə söhbət açmaq istərdim.

Bizim Türkiyə ilə əməkdaşlığımızın oynadığı rolu bu gün heç kəs şübhə altına ala bilməz. Türkiyənin bu məntəqədə NATO-nun yeganə üzvü olması böyük əhəmiyyətli bir faktordur. Təkcə Azərbaycan üçün yox, NATO ölkələri üçün də eyni dərəcədə. Əlbəttə, bizim Türkiyə ilə NATO çərçivəsində əlaqələrimiz ilk günlərdən başlamışdır. Hörmətli elçi cənab Çeviköz o vaxtlar NATO-da çalışırdı. Hələ o vaxtlardan əlaqələrimiz qurularaq, genişlənməyə başlamışdır. Bu gün bir tərəfdən Türkiyənin NATO üzvü olması, digər tərəfdən Azərbaycanın onun ən yaxın tərəfdaşı olması və Türkiyənin Bakıda NATO-nun əlaqələndirici-si rolunu oynaması çox vacib faktordur. Bizim NATO ilə dialoqumuz, əlaqələrimiz genişlənməkdədir. Azərbaycanın NATO-ya verdiyi töhfə də inkişaf etdirilməkdədir. Kosovoda Azərbaycan əsgərlərinin xidməti yüksək qiymətləndirilir. Bu məsələdə Türkiyənin rolu misilsiz olub. NATO ilə əlaqələrimizin bizim təhlükəsizliyimiz üçün vacib olduğunu bildirmək istəyirəm. Bu, heç də o demək deyildir ki, Azərbaycan NATO-ya daxil olmaq istəyir. Belə bir fikir heç vaxt rəsmi olaraq bəyan edilməmişdir və güman edirəm ki, yaxın gələcəkdə də bəyan edilməyəcəkdir. Amma NATO ilə əlaqələrimizin de-fakto üzvlük səviyyəsinədək çıxarılması, onun belə bir inteqrasiyalı tərəfdaşlıq səviyyəsinə gəlib çıxması həm Azərbaycan üçün, həm də Türkiyə üçün önəmli olacaqdır. Burada isə biz Türkiyənin yardımlarına ümidvarıq. Və hesab edirəm ki, həm Türkiyənin, həm də Azərbaycanın maraqlarına belə bir əməkdaşlığın qurulması, inteqrasiyalı əməkdaşlığın qurulması cavab verir.

Bizim yaxın vaxtlarda bu barədə aparacağımız müzakirələr – rəsmi olaraq xarici işlər nazirlikləri arasında və müdafiə nazirlikləri arasında aparılacaq müzakirələr bu məsələlərə həsr olunacaqdır.

Ermənistanla Azərbaycan arasında olan münaqişələrilə bağlı məsələlər Türkiyə ilə Azərbaycanın əməkdaşlığının ən mühüm sahələrindən birini təşkil edir. Deməliyəm ki, Türkiyə ilk gündən - 1992-ci ilin mart ayının 24-dən Minsk konfransı təşkil edildiyi ilk gündən Minsk qrupunda öz yerini almışdır. Türkiyənin böyük elçiləri, diplomatları bu işdə fəal iştirak etmişlər. Bu münaqişənin bugünkü mərhələsi çox həssas, çox çətin bir nöqtədədir. Mürəkkəb bir dövrü yaşayırıq. Çünki Ermənistan tərəfininin göstərdiyi destruktiv mövqelər Minsk qrupunun fəaliyyətinə çox böyük xələl gətirir. Odur ki, Minsk qrupu fəaliyyətsizlik dövrünü yaşayır. Və biz ümidvarıq ki, Türkiyə bu fəaliyyətsizliyə son qoyub, Minsk qrupunun ATƏT tərəfindən təyin olunmuş məqsədlərin yerinə yetirilməsi üçün yenidən işə başlamasına nail ola bilər. Onun əsas istiqamətləri barədə isə sizin xəbəriniz var. İlk öncə, bu işğal olunmuş torpaqların boşaldılması, əhalinin öz yurd-yuvalarına qayıtması və siyasi məsələlərin həll edilməsindən ibarətdir. Demək olar ki, bu vaxta qədər biz həmişə Türkiyə ilə eyni mövqelərdən çıxış etmişik və bu da təbiidir. Əminəm ki, bu istiqamətdə əməkdaşlığımız davam edəcəkdir.

Minsk qrupu çərçivəsində nəticə əldə olunmasa, başqa formaların, başqa yolların axtarılmasını davam etdirməliyik. Buna görə də Türkiyənin bu regionda oynadığı, daha çox oynaya biləcəyi rol böyükdür. Ümumiyyətlə, biz əvvəldən də Türkiyənin regionda daha sıx fəaliyyət göstərməsinin tərəfdarı olmuşuq. 1999-cu ildə ATƏT-in İstanbul şəhərində keçirilmiş zirvə toplantısında bizim prezidentimiz çıxış etdi. Cənubi Qafqazda olan bütün problemləri təhlil edəndən sonra Türkiyə, ABŞ, Rusiya, Almaniya, Fransa, İngiltərə və ATƏT-in digər ölkələrinə bu problemlərə son qoymaq, onu prinsipial əsaslarda həll etmək üçün və Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması təklifi ilə müraciət etmişdir. Bu təklif ilk öncə Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl tərəfindən



dəstəklənmişdir. Sonra Azərbaycanın təklifinə oxşar bir neçə təklif irəli sürülmüşdür ki, bunların bəziləri əməkdaşlıq, bəziləri istiqrar, bəziləri sabitlik paktları kimi adlandırılmışdır. Əslində, onu demək istəyirəm ki, məsələnin əsas məğzi, əsas mənası heç də onun adı ilə təyin edilmir. Onun əsasında, onun içində olan prinsiplərdən asılı olur. Və bu prinsiplər, məntəqədə dövlətlər arasındakı əməkdaşlıq bütün dünya ictimaiyyəti tərəfindən tanınmış və qəbul edilmiş prinsiplər və normalar əsasında qurulmalıdır. Suverenlik, ərazi bütövlüyü, bir-birinin sərhədlərinin toxunulmazlığının tanınması, separatizmə, işğala, təcavüzə son qoyulması və bu əsaslarda ölkələrin arasında əməkdaşlığın yenidən qurulması naminə müvafiq addımların atılmasından ibarətdir. Türkiyə bu istiqamətdə Azərbaycanın tam tərəfdaşı olan ölkədir. Və biz ümidvarıq ki, bu təklif yerinə yetiriləcəkdir.

Bugünkü yaşadığımız dövrdə, əlbəttə, sentyabrın 11-də baş vermiş hadisələrdən danışmamaq mümkün deyil. Bir tərəfdən, vaxtilə Azərbaycan və Türkiyə dünya ictimaiyyətinin diqqətini bu mövzuya cəlb etdiyi zaman ona cavab verilməmişdi, müvafiq addımlar atılmamışdı. Dünyanın ən böyük ölkəsində terror aktı baş verəndən sonra isə terrorizm məsələsinə diqqət yetirilmişdir. Bu, məsələnin bir önəmli tərəfidir. O biri tərəfi – təhlükəli istiqaməti ondan ibarətdir ki, İslam dünyasındakı ziddiyətləri daha təhlükəli səviyyəyə çatdıra bilər.

Bu məsələlərdə Azərbaycan və Türkiyə çox fəal və müsbət rol oynaya bilər. Çünki həm Türkiyə, həm də Azərbaycan müasir İslam dövlətləridir, amma eyni zamanda həm də Avropaya mənsub olan ölkələrdir. Azərbaycan artıq iki ildir ki, Avropa təşkilatları ilə İslam Konfransı Təşkilatı arasında sıx əməkdaşlıq qurmaq təklifini irəli sürür. Və iki ay bundan əvvəl Türkiyənin xarici işlər naziri İsmail Cem tərəfindən irəli sürülən təklif də məhz Avropa Birliyi ilə İslam Konfransı Təşkilatı arasında əməkdaşlıq qurulması ilə bağlı olmuşdur. Bu da çox önəmli bir məqamdır. Yaxın vaxtlarda – fevral ayında İslam və Avropa dövlətlərinin konfransı keçiriləcəkdir. Bizim xarici işlər naziri də orada iştirak etməyi planlaşdırır. Hesab edirəm ki, bu nöqteyi-

nəzərdən, Türkiyənin və Azərbaycanın beynəlxalq səviyyədə təhlükəsizlik məsələlərinin həllində oynaya biləcəyəi rol nəzərdən qaçmamalıdır. Vəziyyətdən sui-istifadə etmək mənasında deyil, tam başqa bir mənada deyirəm: bu iki ölkə iki dünya arasında olan ölkələrdir, İslam dünyasının, Qərb ölkələrinin dəyərlərinə malik olan ölkələrdir. Və bu faktordan mütləq istifadə etmək lazımdır.

Türkiyənin Avropa ilə əlaqələri Azərbaycan üçün çox vacib əhəmiyyət daşıyır. Çünki Azərbaycan, bilirsiniz, Avropa İttifaqı ilə tərəfdaşlıq əlaqələrini qurmaqdadır. Biz Türkiyənin Avropa Birliyinə üzv olmaq cəhdlərini böyük diqqətlə izləyirik və dəstəkləyirik. Türkiyə Avropa Birliyi üzvlüyünə daxil olsa, bu da o deməkdir ki, Azərbaycan Avropa ilə həmsərhəd olan ölkə olacaqdır. Və bu nöqteyi-nəzərdən, Azərbaycanın yeni imkanları açılacaqdır. Avropa Birliyini tək iqtisadi sahədə bir «səxavətli əl» kimi başa düşmək düzgün olmaz. Bu Birlik iqtisadi sahə ilə yanaşı, həm siyasi nüfuza malik, həm də hərbi sahədə fəaliyyət göstərən bir qurumdur. Azərbaycanın hal-hazırda Avropa sahəsində atdığı addımlar Avropa İttifaqı ilə təhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmişdir.

Əfqanıstanla bağlı böhrandan sonra, mən biləni, altı aydan sonra Türkiyə hal-hazırda orada aparılan sülh əməliyyatlarına komandanlığı öz üzərinə götürəcəkdir. Bu da Azərbaycan üçün bəzi imkanlar verəcək. Bunlar barədə müfəssəl şərh vermək tezdir. Bu, bizim Türkiyə ilə əməkdaşlığımızın bir istiqamətini təşkil edə bilər.

NATO ilə əməkdaşlığımız, dediyim kimi, 1992-ci ildən qurulmağa başlanıb və inkişaf etməkdədir. Bildiyimiz kimi, Azərbaycan sülh naminə tərəfdaşlıq proqramının fəal iştirakçılarından biridir, NATO-da fəaliyyət göstərən Avroatlantika tərəfdaşlıq şurasının işində də fəal iştirak edir. Bakıda bu çərçivədə bu vaxta qədər bir sıra tədbirlər həyata keçirilmişdir və keçiriləcəkdir. Türkiyə ilə birgə əməkdaşlığımız həm NATO-nun gündəliyinə, həm də Avropa İttifaqının proqramlarına uyğun aparıla bilər. Bu baxımdan yeni hədəflər, yeni risklər nəzərdən qaçmamalıdır. Terrorizm, mütəşəkkil cinayətkarlıq, narkobiznes, silahların satışı, insan alveri və s. nəzərdə tuturam. Bu mənada bu yaxınlarda Ankarada keçirilmiş görüşün böyük əhəmiyyəti var. Türkiyə, Gürcüstan, Azərbaycan ilk dəfə olaraq bu sahələrə aid üçtərəfli saziş işləyib hazırlayıblar. Bu sazişin əsas məqsədi təhlükəsizliyin təmin edilməsi, terrorizmə və cinayətkarlığa qarşı birgə mübarizə etməkdir. Heç kəs blok yaratmaq niyyətində deyil. Belə niyyət gündəlikdə durmur. Bununla belə, Türkiyənin Silahlı Qüvvələri ilə Azərbaycanın Silahlı Qüvvələrinin əməkdaşlığının genişləndirilməsi lazımdır, bu təbiidir. Bildiyimiz kimi, bunun da müxtəlif formaları var ki, biz onlardan istifadə etməliyik.

Mən çox danışa bilərdim. Amma vaxtımız məhduddur. İcazə verin çıxışımı bununla bitirim.

**Diqqətinizə görə çox sağ olun.**

**OSMAN ÜNAL**
*strateji uzmanı*

## TÜRKİYE-AZERBAYCAN ASKERİ İŞBİRLİĞİ

### 1. GENEL:

Ülkenizde bulunmaktan büyük mutluluk duymaktayım. Yeni yılınızı kutluyorum.

Azerbaycan'ın bağımsızlığı kazanmasının ardından dost ve kardeş Azeri halkıyla geçtiğimiz 10 yıl içerisinde sürekli gelişen ilişkilerimizden son derece memnunuz.

Bizler, Azerbaycan'ın bağımsızlık sonrasında çoğulcu demokratik yapı ve piyasa ekonomisine geçiş sürecini her zaman olduğu gibi bu gün de destekliyoruz. Bu konuda üzerimize düşen ve mümkün olan her türlü görevi büyük bir memnuniyetle yerine getireceğimizi ifade etmek istiyorum.

Türkiye Azerbaycan'ın en önemli milli meselesi olduğunu bildiğimiz Yukarı Karabağ uyuşmazlığında Azerbaycan'ın yanındadır. Bu soruna bir an önce barışçı, adil ve kalıcı bir çözüm bulunması amacıyla ikili düzeyde ve Minsk grubu içinde aktif çaba harcamaktayız.

### 2. İKİLİ İŞBİRLİĞİ:

Ülkelerimiz arasındaki yakın bağların somut işbirliği projeleri şeklinde geliştirildiğini görmekten büyük memnuniyet duyuyoruz.

Askeri alanda imzalamış olduğumuz 13 anlaşmayla yasal altyapıyı tamamlamış durumdayız. Bu da bizleri memnun eden ve Azerbaycan ile ilişkilerimizin düzeyini gösteren bir başka husustur.

Bu çerçevede 2000 Eylül ayında imzalanan savunma sanayi alanında işbirliği anlaşması bu alanda hukuki zemini oluşturmuştur.

1992 yılından itibaren Azerbaycan ile yapılan askeri eğitim işbirliği anlaşması kapsamında eğitim faaliyetleri sürdürülmektedir.



Özellikle son beş yıl içinde Azerbaycan Silahlı Kuvvetlerinin geliştirilmesi, subay ve astsubayları ile çeşitli birliklerinin eğitim faaliyetlerine destek sağlanmıştır. Bu bağlamda, TSK-nin çeşitli eğitim ve öğretim kurumlarında diğer ülkelerin yanı sıra Azerbaycan'a da arzu edilen kontenjanlar tahsis edilmiştir.

Diğer taraftan Azerbaycan Silahlı Kuvvetlerinin çeşitli eğitim ve öğretim kurumlarında da danışmanlık faaliyetleri yürütülmektedir.

Türk Silahlı Kuvvetlerinin Azerbaycan'a yönelik lojistik faaliyetleri, 23 nisan 1995 tarihine kadar, Azerbaycan Silahlı Kuvvetlerinin acil ihtiyaçlarının karşılanması çerçevesinde gerçekleşmiştir. 1996 yılından itibaren ise, 5 kişilik danışma ve koordinasyon kurulu, Azerbaycan'da görev yapmaktadır.

Azerbaycan Silahlı Kuvvetleri lojistik sisteminin ve lojistik teşkilatının NATO'da ve TSK'de uygulanan sistem ve teşkilata dönüşdürülme çalışmaları devam etmektedir. Azerbaycan Silahlı Kuvvetlerinin öncelikle Tugaz bazında NATO standartlarına ulaşması için gerekli faaliyetler sürdürülmektedir.

Hal-hazırda Türk savunma sanayi tarafından Azerbaycan'a çeşitli düzeylerde hizmetler sağlanmaktadır. Ülkelerimiz arasındaki savunma sanayi işbirliği faaliyetlerinin bir daha geliştirilmesini istiyoruz.

Böylelikle, Türkiye'de mevcut modern savunma sanayii alt yapısından ve NATO standartlarındaki havacılık, hızlı araç, savunma elektroniği ve genel silah sanayii imkanlarından Azerbaycan'ın yararlanması imkanı doğmaktadır.

İki devlet bir millet olarak gördüğümüz ülkelerimiz arasında halihazırda var olan yakın ekonomik ilişkilerin bundan sonra layık olduğu seviyeye yükseltilmesi gayreti içinde olmamız gerektiğini değerlendiriyorum.

### 3. AZERBAYCAN—NATO İLİŞKİLERİ:

Bilindiği üzere, Azerbaycan-NATO ittifakının Azerbaycan'ı 1994 yılında barış için ortaklık (BİO) programına davet etmesi ve Azerbaycan'ın da bu davete 1996'da olumlu cevap vermesiyle başlamıştır.

Azerbaycan'ın bir çok alanda olduğu gibi, BİO kapsamında da NATO ile müşterek icra eden faaliyetlere katılması memnuniyet vericidir.

Azerbaycan, BİO kapsamında sürdürülen faaliyetlere, her yıl artan bir ilgi ile katılmaktadır. Azerbaycan'ın NATO tatbikatlarına da katılmaya istekli olduğu bilinmektedir.

Nitekim NATO genel sekreteri George Robertson, 15-18 Ocak 2001 tarihlerinde Azerbaycan'a yaptığı ziyarete ilişkin değerlendirmede, Azerbaycan—NATO ilişkilireni geliştirme konusuna Azerbaycan yetkililerinin fevkalade ilgili ve iş birliğine açık olduğunu belirtmiştir.

Türkiye, Azerbaycan'ı bu tatbikatlara katılım konusunda desteklemektedir.

**4. ERMENİSTAN:**

Dünya çapında sürdürülen sözde ermeni soykırımı propagandasının; Ermenistan'ın, Karabağ ve diğer Azeri şehirlerinin işgalini unutturmak amacına yönelik olduğu değerlendirilmektedir.

Ermenistan'ın Türkiye'ye karşı izlemekte olduğu hasmane tutumundan dolayı bu ülke insanları için kaygı duymaktayız.

Diaspora etkisinde Türkiye'ye karşı düşmanca tavırlar sergileyen ve Karabağ'da işgal ettiği topraklardan çekilmemekte direnen Ermenistan'ın gittikçe kötüleşen ekonomik, politik ve sosyal yapısıyla, Güney Kafkasya bölgesinde önemli bir istikrarsızlık kaynağı olmaya devam etmekte olduğunu müşahede etmekteyiz.

Bildiğiniz gibi, son birkaç senedir bazı ülkelerin parlamentorlarında; "Sözde Ermeni soykırımı"nı tanıma girişmeleri yoğunluk kazanmıştır.

Sözde Ermeni soykırımı iddialarının, milletimizin yaşadığı acıları yaşamamış ülkelerin, tarihi gerçeklerden haberi dahi bulunmayan parlamenterleri tarafından gündeme getirilmesini takdirlerinize bırakıyorum.

Geçmişte Anadolu türkünün ve Azerbaycan türkünün yaşadığı ermeni mezalimi düşünüldüğünde bu iddiaların anlamsızlığı ve gülünçlüğü açıkça görülmektedir. Soykırımdan bahseden



Ermenistan'ın halen Azeri topraklarını işgal altında bulundurması ise, bu ülkenin asıl niyetini göstermesi bakımından ilginçtir.

Türkiye kardeş Azerbaycan'ın toprak bütünlüğünün korunmasına önem vermektedir. Bu doğrultudaki çabalarına bu güne kadar olduğu gibi, bundan sonra da aynı kararlılıkla sürdürecektir.

**5. GÜRCÜSTAN:**

Türkiye ile Gürcüstan iyi komşuluk ilişkileri bakımından bir çok ülkeye örnek teşkil edebilecek bir tavır sergilemektedir. Ülkelerimiz arasındaki ilişkiler Gürcüstan'ın bağımsızlığını ilan ettiği günden başlayarak sürekli gelişmiştir.

Özellikle son 3-4 yılda Türk Silahlı Kuvvetleri ve Gürcüstan Silahlı Kuvvetleri arasında; güvenlik, eğitim ve lojistik alanlarında işbirliği konusunda önemli gelişmeler sağlanmıştır.

**6. DEĞERLENDİRME:**

SONUÇ OLARAK;

Türkiye'nin Azerbaycan'a yönelik politikasının temel amaçları, dost ve kardeş Azerbaycan Cumhuriyeti'nin her şeyden önce bağımsızlık ve egemenliğinin pekiştirilmesi,

Her türlü çatışma ve istikrarsızlıktan uzak olarak ekonomisinin serbest pazar ilkeleri çerçevesinde geliştirilmesi ve batı dünyası ile her açıdan bütünleşmesidir.

Türkiye bağımsız ve güçlü bir Azerbaycan için desteğini sürdürmeye devam edecektir.

**Arz ederim.**

# ✱ MÜZAKİRƏLƏR ✱

**SABİR RÜSTƏMXANLI,**
***millət vəkili***

***Hörmətli konfrans iştirakçıları.***

Mən də Atatürk Mərkəzinə Türkiyə və Azərbaycan arasındakı diplomatik əlaqələr qurulmasının 10 illiyinə həsr olunmuş konfransı təşkil etdiyinə görə öz minnətdarlığımı bildirirəm. Güman edirəm ki, bu gün lazımlı mövzulara toxunulur və Türkiyə ilə Azərbaycanın son dərəcə rahat olan, amma əslində həm də mürəkkəb olan münasibətlərinin gələcəyinə işıq tutmaq baxımından çox ciddi problemlər qaldırılır. Burda Türkiyə ilə Azərbaycanın diplomatik münasibətlərinin 10 illiyindən danışılır. Mən əlaqələrimizin rəsmi tərəfinə toxunmadan, bu sahədə qeyri-rəsmi diplomatiyanın, daha doğrusu, xalq diplomatiyasının gördüyü işlərdən danışmaq istəyirəm. Çünki Türkiyənin Azərbaycanın müstəqillik taleyindəki rolu daha çox məsələnin bu tərəfində öz əksini tapır, yəni rəsmi diplomatiyadan daha çox, qeyri-rəsmi diplomatiya xüsusi rol oynayır. Bu baxımdan 80-cı illərdən başlayaraq Azərbaycana gəlib-gedən türk yazarlarının, Azərbaycandan Türkiyəyə gedən, hələ sovetlər dövründə Moskvadan viza ilə gedən qardaş ölkə haqqında kitablarını çap etdirən yazıçılarının xidməti əvəzsizdir. Bir zaman Türkiyədə olduq, Karsda, İqdırda, Qayseridə və Türkiyənin başqa şəhərlərində keçirilən böyük xalq yürüşlərinin video-kasetlərinə baxdıq. «Azərbaycan qanımız, fəda olsun canımız!» şüarı ilə yarım milyon qayserili insan kütləsi küçələrə çıxmışdı. O zaman həmin lent yazılarını gətirib televiziyada göstərdik və camaata dedik ki, baxın, Azərbaycan təklənməyib. Bu işin ikinci tərəfi ondan ibarətdir ki, Türkiyə təkcə Türkiyədə yaşayan vətəndaşlarının köməyi ilə yox, həm də bütün dünya ölkələrində yaşayan türk vətəndaşlarının yardımı ilə Azərbyacanı dəstəkləyirdi. Avropada yaşayan, Amerikada yaşayan, türk icmalarının, türk cəmiyyətlərinin yüz minlərlə insanı küçələrə çıxmışdı. Almaniyanın Berlin, Köln şəhərlərində, Hollandiyada, Belçikada çoxsaylı mitinqlər keçirilmişdi. Bu yerlərdə işləri görənlər azəri əsilli İran vətəndaşları, əsasən də Türkiyə vətəndaşları idi. Yəni bu da Azərbaycanın müstəqilliyinin təbliği idi. 1990-cı ildə Qayseridə Böyük Azərbaycan konqresi keçirildi və Azərbaycandan 120-dən çox adam orada iştirak edirdi. Ondan az sonra - 1991-ci ildə İstanbulda dünya azəri-türk dərnəklərinin I qurultayı keçirildi. Ondan sonra isə bağımsızlıq qazanmış türk cumhuriyyətlərinin parlament üyələrinin, yəni deputatlarının ilk görüşü Kıbrısda aprel ayında keçirildi. Bu görüş Ana Vətən Partiyası ilə Türk Dünaysı Araşdırmaları Vəqfinin birgə təşəbbüsü idi və buraya Ana Vətən Partiyasından 90 millət vəkili, Azərbaycan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan və Özbəkistanın hərəsindən 2 millət vəkili qatılmışdı. Dörd gün ərzində ancaq bu respublikaların sorunları müzakirə edildi. Ondan sonra - 1992-ci ildə ABŞ-da təxminən 300 Amerika-Türk cəmiyyətinin qatıldığı Amerika-Türkiyə cəmiyyətlərinin qurultayında yeni bağımsızlıq qazanmış türk cumhuriyyətlərinin sorunları müzakirə olundu və orada əsas mövzu Qarabağ məsələsi idi. Amerikanın çoxsaylı diplomatlarının, ictimai təşkilatlarının qatıldığı bir məclisdə bir neçə gün ərzində, Amerika-Türkiyə cəmiyyətlərinin yardımı ilə, Azərbaycan məsələləri gündəliyə gətirildi. Bu siyahını artırmaq da olar. Bundan sonra ilk dəfə Antalyada başlanan, sonra isə hər il Türkiyənin başqa-başqa şəhərlərində rəhmətlik Alparslan Türkeşin təşəbbüsü və başçılığı ilə keçirilmiş türk dövlətləri və toplumlarının qurultaylarında Azərbaycan məsələləri geniş danışılıb.

Bu onu göstərir ki, Azərbaycan-Türkiyə münasibətlərinin rəsmi qatı ilə qeyri-rəsmi qatını ayırmaq lazım deyil. Mənə qalsa, Azərbaycan-Türkiyə münasibətlərinin xalq diplomatiyası rəsmi diplomatiyadan daha güclü, daha geniş və əhatəli olmuşdur. Rəsmi diplomatiyamız çəkingəndir, «ə qonşu nə deyər, bu qonşu nə deyər» psixologiyasından qopa bilmir, Türkiyə NATO-nun

ağzına baxır, Azərbaycan Rusiyaya baxır, İrana baxır, ona baxır, yəni bu ölçülü-biçilən, tənzimlənən siyasət aparmaqda bir çox əngəllər var ki, onu aşıb gedə bilmir. Ancaq qeyri-rəsmi diplomatiya bu şeylərə baxmır.

Mən bir neçə kəlmə də bu məsələlərin gələcəyindən danışmaq istəyirəm. Gələcək işlərimiz barədə, məncə, Yaşar Kalafat çox geniş və məzmunlu danışdı. Təxminən 10 il əvvəl konfranslarda, toplantılarda hansı məsələlərin həllindən danışırdıqsa, bu gün yenə də Türkiyə və Azərbaycanda həmin məsələlərdən danışırıq. Həyata keçirilməsi bir çox proqramlar var. Təəssüf ki, bu proqramlar gecikdirilir. Mən bir fakt deyim, məsələn, eyitim sahəsində. Bakıda rus dilli təhsil müəssisələrinin sayı çoxdur, ali məktəblərdə az qala bütün fakültələrin rus bölməsi var.

Azərbaycan iqtisadiyyatı Türkiyə modelinə üstünlük verir. Qərblə inteqrasiyaya gedib, bazar iqtisadiyyatında Türkiyə təcrübəsinə əsaslanırıq. Amma təhsil sistemində belə deyil. Bəs o çocuqlar təhsillərini bitirib nə yapacaqlar? Onların işi burada nə olacaq?

Bakıda Türkiyənin təhsil ocaqlarına yüz cür əngəllər yaradılır. Məsələn, Atatürk litseyinin başından dava əskik olmur. Gah yerlərini əllərindən alırlar, gah qonşu məktəblərə iğtişaş salırlar və s. Bu nə politikadır? Bu da rəsmi politikadırmı? Axı niyə belə olmalıdır. Türkiyə 1918-ci ildə sənin namusunu qoruyan, bu gün də səni bütün dünyaya tanıdan bir ölkədir. Odur ki, Türkiyə ilə iki üzlü siyasət aparmaq olmaz. Gələcəkdə əməkdaşlığımızın daha da genişlənəcəyini göz önünə gətirsək, onda işlər buna uyğun görülməlidir. Tək eyitim deyil, başqa sahələr də var. Söhbət ortaq əlifbadan gedir. Rus-kiril əlifbasından qopduq. Türk cümhuriyyətlərinin hərəsi bir əlifba qəbul elədi. Adı latındır, amma bunların bir-biri ilə əlaqəsi yoxdur. Eyni yanlışlıqlar yapılıb. Mən indi də deyirəm: Əlifba işi bilim adamlarının işi deyil, politika işidir, dövlətlərin siyasətidir. Cümhurbaşqanları yığılıb bir model qəbul eliyərdilər, bununla da məsələ bitərdi.

Və son olaraq: biz, təbiidir, bir-birimizi anlayırıq. Anadolu köylüləri və Azərbaycan köylüləri aynı dildə danışırlar. Mən



İstanbula gedirəm və hər dəfə gedəndə də Qərbə doğru, yəni süni dil yapmaq uğrunda yeni bir cəhd, yeni bir yarış görürəm. Yəni Azərbaycanda da bir rus etkisi var idi, təbii ki, indi onun qarşısı alınıb. Məncə, Türkiyədə dil islahatına daha ehtiyatlı yanaşmaq lazımdır. Yığışıb ortaq bir komission yaratmaq, ortaq işlər görmək lazımdır ki, dildə bu yadlaşma, bu uzaqlaşma olmasın. Köylü bizim dildə danışır, amma sizin yazarlarla danışanda mən bilmirəm nə dildə danışır? Həm türkcədir! Həm də türkcə deyil! Yapma bir dildir. Ona görə də ortaq ensiklopediyalar, ortaq əlifba, ortaq lüğətlər, birgə araşdırmalar, sorğular – bizim saysız-hesabsız bu kimi görəcəyimiz işlər var. Məncə, bütün bunlar bizim rəsmi diplomatiyamızın inkişafına təsir göstərən, onu sürətləndirən sahələrdir. Əgər millət bu işə başlasa, dövlət də bu işə qoşulmağa məcbur olacaqdır.

**Sağ olun.**

✷

## NOVRUZ MƏMMƏDOV,
***Prezident Aparatı xarici əlaqələr şöbəsinin müdiri***

***Hörmətli sədr.***
***Hörmətli konfrans iştirakçıları.***

İkinci dəfə çıxış edərək vaxtınızı almaq istəmirəm, lakin bu məclisdə səslənən bir-iki fikirə öz münasibətimi bildirməliyəm. Bu gün bu konfransda çox dəyərli fikirlər səsləndi, gözəl təkliflər verildi. Və mən əminəm ki, Azərbaycan-Türkiyə münasibətlərinin həsəd aparılacaq dərəcədə gözəl perspektivləri var. Tam əminliklə deyirəm ki, bütün sahələrdə həm yaxın, həm uzaq maraqları üst-üstə düşən bu iki qardaş xalqın, dövlətin, ölkənin dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinin, möhkəmlənməsinin və dərinləşməsinin qarşısını heç kim ala bilməz.

Elə bu baxımdan burada səslənən bəzi fikirləri söyləməkdə hörmətli şair və yazıçımız Sabir Rüstəmxanlının bəzi mülahizələrini anlamaq çətindir. Ona görə ki, Azərbaycan məktəblərində rusdilli bölmələrə meylin güclü olması haqqında deyilənlər ən azı həqiqətdən uzaqdır. Azərbaycanda Türkiyənin mövqeyi ilə əlaqədar deyilənlər də həqiqətə uyğun deyil. Bu sahədə nailiyyətlərimiz göz qabağındadır.

Elə daxili siyasətlə xarici siyasət, rəsmi diplomatiya ilə qeyri-rəsmi diplomatiya haqqında söylənən fikirlər də ziddiyyətli olaraq, iki ölkə arasında mövcud real münasibətləri əks etdirmir, əksinə, həmin fikirlər metodoloji və nəzəri cəhətdən əsaslandırılmadığı üçün düzgün nəticə çıxarmağa imkan vermir.

Mən bu əlamətdar məqamda bir daha təkrar edirəm, Azərbaycan-Türkiyə münasibətləri xalqımızın tarixi kökü, bağlılığı və istəkləri üzərində qurulduğundan daim möhkəmlənməli və inkişaf etməlidir. Bu prosesin alternativi yoxdur.



Əmin ola bilərsiniz ki, Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyev bu istiqamətdə, yəni siyasi, iqtisadi, mədəni və digər bütün sahələrdə iki ölkə arasında münasibətləri daha da yüksək səviyyəyə qaldırmaq üçün əlindən gələn hər bir şeyi etməyə hazırdır. Bu, Azərbaycan Respublikasının xarici siyasətinin Prezidentimiz tərəfindən müəyyən olunmuş prioritet istiqamətidir.

**Diqqətinizə görə sağ olun.**

✷

## RÜFƏT RÜSTƏMOV,

***BDU-nun şərqşünaslıq fakültəsinin türk filologiyası kafedrasının müdiri, professor***

*Hörmətli sədr.*

*Hörmətli səfir, qonaqlar, xanımlar və cənablar.*

Bu gün biz tarixi bir missiyanı yerinə yetirir, həm də əlamətdar hadisənin iştirakçısı oluruq. Müstəqilliyini ikinci dəfə elan etmiş Azərbaycan Resbublikasını rəsmən ilk dəfə tanıyan Türkiyə Resbublikası ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin yaranmasının on illiyi münasibəti ilə sizi və fürsətdən istifadə edərək yeni təyin olunmuş hörmətli səfir **Əhməd Ünal Çeviközü** ürəkdən təbrik edir və bir millət iki dövlət olan Azərbaycan və Türkiyə üçün xeyirli, uğurlu olsun deyirəm.

Çox əlamətdar hadisədir ki, iki qardaş dövlət arasında böyük işlər görəcək **Azərbaycanda Atatürk Mərkəzi** məhz müstəqilliyimizin böyük memarı, görkəmli siyasi xadim, müdrik rəhbər, çox hörmətli Prezidentimiz, zati-aliləri **Heydər Əliyev** cənablarının şəxsi təşəbbüsü və fərmanı ilə yaradılmışdır. Müdrik və uzaqgörən rəhbərin sərəncamı ilə dilçiliyimizin flaqmanı, tanınmış türkoloq, millət vəkili, professor **Nizami Cəfərovun** yeni yaradılmış Mərkəzə müdir təyin edilməsi gələcək uğurlardan xəbər verir. Buna görə də bu kürsüdən fəxrlə deyə bilərəm ki, Azərbaycanla Türkiyə arasında diplomatik əlaqələr dünya standartlarına cavab verəcək bir şəkildə uğurla, daim yüksələn xətlə inkişaf etdiriləcəkdir.

*Hörmətli sədr, hörmətli səfir, seminar iştirakçıları.*

Nəzərinizə çatdırmaq istəyirəm ki, keçmiş sovet sistemində türk dilinə olan münasibəti şərh etməyə ehtiyac yoxdur. Bəzi qadağa və təsirlərə baxmayaraq türk dili, ədəbiyyatı, tarixi və coğrafiyasının tədrisi Bakı Dövlət Universitetində xüsusi diqqət mərkəzində olmuş, tələbə və müəllimlərin Türkiyəyə və türk dilinə olan sevgisi azalmamış, bu gün isə özünün ən yüksək



nöqtəsinə çatmışdır. Yeri gəlmişkən xatırladım ki, kafedramızın 7 nəfər əməkdaşı uzun illər Türkiyədə tərcüməçi kimi fəaliyyət göstərmişdir. Qeyd etmək istəyirəm ki, təvazökarlıqdan uzaq olsa da, mən özüm ilk dəfə olaraq V kurs tələbəsi kimi 1972-1973-ci illərdə Türkiyədə tərcüməçi işləmişəm. Göründüyü kimi, şöbəmizin müəllimlərinin böyük praktik təcrübəsi vardır. Son yetmiş ildən sonra-1990-cı ildə Bakı Dövlət Universitetində ilk müstəqil türk filologiyası kafedrası yaradıldı.10 yaşı yeni tamam olmuş bu kafedrada hazırda 22 nəfər müəllim çalışır. Onlar daim müxtəlif səviyyəli simpoziumlarda, konfranslarda və s. fəal iştirak edirlər. Kafedramız yetişməkdə olan gənc nəslin bacarıqlı mütəxəssis kimi hazırlanmasına xüsusi qayğı göstərir. Bu məqsədlə dərslik və dərs vəsaitlərinin nəşrinə özəl əhəmiyyət verilir. Təvazökarlıqdan uzaq olsa da, qeyd etmək istəyirəm ki, 1989-cu ildən indiyə qədər mənim yeddi kitabım çap olunmuşdur. Respublikada ilk türk dili dərsliyinin müəlliflərindən biri mənəm. Kafedramızda həm bakalavr, həm də magistr pilləsi üçün yeni proqramlar hazırlanmışdır.

Nəzərinizə çatdırım ki, şərqşünaslıq fakültəsində türk filologiyası kafedrası ilə yanaşı, ərəb və fars filologiyası kafedraları fəaliyyət göstərir. Ərəb filologiyasının nəzdində ivrit, yapon, çin; fars filologiyası kafedrasının nəzdində urdu dili tədris olunur. Respublikamızda fəaliyyət göstərən əlaqədar ölkələrin diplomatik korpuslarının nümayəndələri müntəzəm olaraq fakültəmizə baş çəkir, onların qayğı və problemləri ilə maraqlanırlar. Minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm ki, sabiq səfir hörmətli Kadri Ecvet Tezcan fakültəmizdə türk odasının təşkil edilməsinə xüsusi qayğı və köməklik göstərmişdir. Bizim ən böyük məqsədimiz türk dilində təhsil alan tələbələrə geniş məlumat verməkdir. Bunu təmin etmək üçün əlimizdə kifayət qədər dövri mətbuatın və yeni çap olunmuş kitabların olması vacibdir. Bu vəsaitlərin əldə edilməsində çətinlik çəkirik. Nəzərinizə çatdırıram ki, sovetlər dövründə tələbələrimiz IV kursda hər il YÖK (Yüksək Öyrətim Kurulu) xətti ilə Türkiyədə bir aylıq stajyorluq keçirdilər. Əksər tələbələr diplom mövzularını Türkiyədə işləyirdilər. Son illərdə nədənsə

bu təcrübə unudulmuşdur. Arzu edirik ki, unudulmuş xoş ənənələr bərpa olunsun.

Çıxışımın sonunda əminliklə bildirmək istəyirəm ki, hörmətli professor, tanınmış alim Nizami Cəfərovun rəhbərlik etdiyi Mərkəz iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin yeni zirvələrə çatdırılmasında, Türkiyə və Azərbaycan arasında elmi-mədəni münasibətlərin yüksələn xətlə inkişafında əhəmiyyətli işlər görəcəkdir. Bu yolda, professor Nizami Cəfərov başda olmaqla Mərkəzin bütün əməkdaşlarına uğur diləyir, onlara uzun ömür, can sağlığı arzulayıram.

**Diqqətinizə görə sağ olun.**

✸



# ✸ YEKUN SÖZÜ ✸

## A.ÜNAL ÇEVİKÖZ,

***Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri***

*Sayın Atatürk Merkezi Başkanı.*

*Değerli Konuklar.*

Bir Milletin iki devleti olan Türkiye ile Azerbaycan arasındakı ilişkilerin on yıllık geçmişini irdelediğimiz bu panelde yaptıkları değerli sunuşlar nedeniyle bütün katılımcılara özellikle teşekkürlerimi sunmak istiyorum.

Türk ve Azeri uzmanlarca Türkiye-Azerbaycan ilişkilerinin her yönüyle ele alındığı bu panelin düzenlenmesindeki katkıları nedeniyle bir kez daha Atatürk Merkezi'nin Başkanı Sayın Nizami Caferov'a ve çalışma arkadaşlarına teşekkür ederim.

Bugünkü panelde ele alınan konular ülkelerimiz arasındaki ilişkilerin on yıllık geçmişinin çerçevesini gerçekten iyi bir şekilde çizmiştir. Bu panelin iki ülke arasındakı ilişkilerin gelecek on yılı için başarılar getirmesini diliyorum.

Türkiye 1918'de ve 1990'larda olduğu gibi 2000'li yıllarda da Azerbaycan'ın iyi ve kötü zamanlarında herzaman yanında olacaktır.

2002 yılının Azerbaycan'ın parlak geleceğinin önünde duran engellerin bir-bir ortadan kalkacağı yıl olması dileğimi tekrarlayarak sözlerime son veriyorum.

✸

## NİZAMİ CƏFƏROV,
**Azərbaycanda Atatürk Mərkəzinin müdiri, AMEA-nın müxbir üzvü, professor**

***Hörmətli cənab səfir.***
***Hörmətli qonaqlar və konfrans iştirakçıları.***

Beləliklə, kofransımız elə əvvəlcədən də gözlədiyimiz kimi, öz işini uğurla başa çatdırdı.

Məncə, bu gündən, artıq tarixə çevrilmiş bu konfransımız bir neçə cəhətinə görə diplomatik əlaqələr tariximizdə yadda qalacaqdır.

Hər şeydən əvvəl, bu elmi-mədəni tədbir bir daha sübut etdi ki, əsası möhtərəm prezidentimiz Heydər Əliyev tərəfindən qoyulmuş diplomatik əlaqələrimiz, tarix üçün çox qısa müddət olan 10 ildə əsrlərə bərabər yoll keçmiş və çətin sınaqlardan uğurla çıxmışdır.

Həmçinin bu konfransımız Azərbaycanda yenicə yaradılmış Azərbaycanda Atatürk Mərkəzinin və Azərbaycanda təzəcə fəaliyyətə başlamış hörmətli səfir cənab Əhməd Ünal Çeviközün keçirdiyi ilk elmi mədəni-kütləvi tədbirdir. Bundan sonra əminliklə demək olar ki, Azərbaycanla bütün ölkələrin diplomatik əlaqələrinin yubileylərini keçirmək, görülmüş işlərə yekun vurmaq bir ənənə halına düşəcək və bizim konfransımız bu işdə örnək olacaqdır.

Odur ki, bu məqsədlə əyani kömək olsun deyə bugünkü konfransımızın bütün materiallarını kitab şəklində çap edib sizlərə və bütün türkçülüyü sevən ictimaiyyətimizə çatdıracağıq.

Mən sözümün sonu olaraq konfransın bütün təşkilatçılarına, çıxışçılara, qonaqlara, mətbuat nümayəndələrinə və iştirakçılara — ad çəkib vaxtınızı almadan — öz dərin və səmimi təşəkkürlərimizi bildirirəm.

Sizin hamınıza çəkdiyiniz zəhmətə görə ürəkdən "sağ olun" deyirəm.



# İÇƏRİSİ


Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələrin 10-cu ldönümü qeyd ediləcəkdir.......... 3
Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələrin 10 illiyinə həsr olunmuşdur.......... 7
Azərbaycan Türkiyə dostluğu, qardaşlığı yenilməzdir, əbədidir.......... 9
*Nizami Cəfərov.* Giriş sözü.......... 14


## ÇIXIŞLAR


*A.Ünal Çeviköz*.......... 16
*Vilayət Quliyev*.......... 19
*Novruz Məmmədov*.......... 22


## MƏRUZƏLƏR


***Professor Bilal Şimşir.*** Türkiye ile Azerbaycan arasında diplomatik ilişkileri tarihinden.......... 24
***Dr. Yaşar Kalafat.*** Onuncu yılında Türkiye-Azerbaycan sosyo-kültürel ilişkileri.......... 29
***Rasim Həsənov.*** Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin bu günü və gələcəyi.......... 40
***Araz Əzimov.*** Azərbaycan ilə Türkiyə arasında hərbi və təhlükəsizlik sahələrində əməkdaşlıq.......... 47
***Osman Ünal.*** Türkiye-Azerbaycan askeri işbirliği.......... 54


## MÜZAKİRƏLƏR


*Sabir Rüstəmxanlı*.......... 58
*Novruz Məmmədov*.......... 62
*Rüfət Rüstəmov*.......... 64


## YEKUN SÖZÜ


*A.Ünal Çeviköz*.......... 67
*Nizami Cəfərov*.......... 68

Yığılmağa verilmişdir: 26.01.2002.
Çapa imzalanmışdır: 06.03.2002
Formatı 60x84 1/16
Şərti ç/v 4,5.
Tirajı 250

"Azərbaycan Milli Ensiklopediyası" nəşriyyatı
Bakı — 370004, Böyük Qala küçəsi 41.
Lisenziya: Seriya AB 022031. A — 031. 17.03.1999